# AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

İxtisas: 5311.01 – Müəssisələrin təşkili və idarə olunması
Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Röya Natiq qızı Sultanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası (Naxçıvan Bölməsi) Təbii Ehtiyatlar İnstitunun İqtisadiyyat şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: İqtisad elmləri doktoru, professor
**Nazim Hidayət oğlu Əhmədov**

Rəsmi opponentlər: İqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

İqtisad üzrə fəlsəfə doktoru
**Allahyar Niyaz oğlu Muradov**

İqtisad üzrə fəlsəfə doktoru
**Namiq Əlövsət oğlu Şalbuzov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində birdəfəlik fəaliyyət göstərən BFD 4.21 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: _____________ *Imza*
İqtisad elmləri doktoru, professor
**Gülənbər Arif qızı Əzizova**

Dissertasiya şurasının elmi katibi: _____________ *Imza*
İqtisad üzrə fəlsəfə doktoru
**Sahib Məmməd oğlu Məmmədov**

Elmi seminarın sədri: _____________ *Imza*
İqtisad elmləri doktoru, professor
**Vilayət İbrahim oğlu İsmayılov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cəmiyyətin tarixi inkişaf mərhələlərində hər bir dövlətin iqtisadi təhlükəsizlik sisteminin tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin tənzimlənməsi, başlıca strateji istiqamətlərdən biri olmuşdur. Demoqrafik inkişafla maddi nemətlər istehsalı arasında nisbətin birincinin xeyrinə sürətli artımı ərzaq çatışmazlığı problemini XX əsrin birinci yarısından etibarən aktuallaşdırmışdır. Əsrin 70-ci illərində təhlükənin perspektivləri beynəlxalq səviyyədə araşdırılmış, BMT-nin Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən ölkələr üzrə müvafiq konsepsiya və proqramların hazırlanması tövsiyə olunmuşdur.

Həllinə beynəlxalq səviyyədə xüsusi əhəmiyyət verilən problemlə əlaqədar olaraq, BMT-nin təşəbbüsü ilə 1996-cı ildə Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası qəbul edilmişdir.

2000-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT tərəfindən dünyanın 191 ölkəsinin dövlət başçılarının iştirakı ilə Minilliyin Sammiti keçirilmişdir. Sammitdə 2015-ci ilədək dünyanın yoxsul əhalisinin sayının yarıya qədər azaldılması öhdəliyini əks etdirən Minilliyin Bəyannaməsi imzalanmışdır.

Hazırda bir çox ölkələrdə qəbul edilmiş Ərzaq Təhlükəsizliyi Konsepsiyası ölkələrin ərzaq müstəqilliyinə nail olmaq, ərzaq təminatı, yəni əhalinin gündəlik zəruri qida ehtiyaclarının ödənilməsi, onun bütün kateqoriyalarının stabil surətdə keyfiyyətli ərzaq məhsulları əldə etmələrinə şərait yaradılmasını, bu sahədə problemlərin öyrənilməsi və aradan qaldırılması yolları ilə bağlı hədəfləri müəyyən edir. Ərzaq təhlükəsizliyi, fövqəladə hallar şəraitində əhalinin müəyyən edilmiş beynəlxalq normalara uyğun olaraq, konkret zaman müddətində ən azı minimum səviyyədə ərzaqla təmin edilməsi üçün tələb olunan ehtiyat fondunun yaradılması vəzifəsinin aktuallığını əsaslandırır. Təhlükəsizliyin kəmiyyət və keyfiyyət baxımından iqtisadi-sosial aspektlərini, bu sahədə fəaliyyətin hüquqi-normativ bazasının hazırlanmasını, vacib təşkilati tədbirlər proqramlarının tərtibinin əsaslarını müəyyən edir.

Bu baxımdan Azərbaycan Respublikası əhalisinin ərzaq təhlükəsizliyi problemi strateji vəzifə olaraq müəyyən edilmiş, yerli mənşəli, çeşidli qida məhsulları istehsalının artırılması və əhalinin

tələbatının ödənilməsi istiqamətində tədbirlər proqramı hazırlanmışdır.

Azərbaycan xalqının sosial vəziyyətinin ən mühüm göstəricilərindən olan ərzaqla təminat probleminin həlli ilə bağlı siyasətin uğurla davam etdirildiyi sonrakı dövrdə dörd müvafiq proqram qəbul edilmişdir. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən "Azərbaycan Resüpublikası regionlarının sosial-iqtisadi inkişafı" dövlət proqramlarında ərzaq təhlükəsizliyi ilə bağlı qarşıya qoyulan vəzifələr respublikanın regionları, eləcə də Naxçıvan Muxtar Respublikası üzrə demək olar ki həllini tapmışdır. 2023-2027-ci illəri əhatə edən proqramın tələblərindən irəli gələn vəzifələr isə uğurla icra olunmaqdadır. Bu dövlət proqramında həmçinin Naxçıvanda DAİM-lərin (Dövlət Aqrar İnkişaf Mərkəzləri), Naxçıvan Muxtar Respublikası azad iqtisadi zonasının həmçinin sənaye parkının yaradılması nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2008-ci il 17 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" hüquqi baza kimi muxtar respublikada problemin həlli yollarını müəyyən etmişdir. Ərzaq məhsullarının istehsal mənbəyi olan kənd təsərrüfatının inkişaf etdirilməsi siyasəti diyarın ərzaq təhlükəsizliyi problemi ilə vəhdətdə reallaşdırılmışdır.

İldən-ilə təkmilləşdirilən ərzaq təhlükəsizliyi siyasətinin nəticələrini araşdırmaq, Muxtar Respublikada əhalinin qida məhsulları ilə təminatında baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini, fövqəladə hallar şəraitində insanların ərzaqla təminatı məqsədi ilə yaradılan ehtiyat imkanlarını təhlil etmək və ümumiləşdirmək baxımından tədqiqatlar xüsusi aktuallıq kəsb edir. Bununla yanaşı minilliyin inkişaf məqsədlərinin davamı olaraq BMT Baş Assambleyası tərəfindən qəbul olunan "Gündəlik-2030" nəzdində "Azərbaycan 2030" gündəliyinin tələblərinin həyata keçirilməsi baxımından mövzu aktuallığını qoruyub saxlayır. Fikrimizcə həmin gündəlikdə əksini tapan 17 Dayanıqlı İnkişaf Məqsədlərindən (DİM) beşi ərzaq təhlüksizliyi siyasəti ilə birbaşa əlaqəlidir və bunlara aiddir: Yoxsulluğa son, aclığa son, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliklərinə qarşı mübarizə, torpaq ekosisteminin mühafizəsi.

Yerli iqtisadi resurslar hesabına ərzaq təminatı səviyyəsini

araşdırmaq, respublikanın demoqrafik inkişafı ilə ərzaq məhsulları istehsalı arasındakı real nisbəti müəyyən etmək, ərzaq məhsullarının istehsalçıdan istehlakçıya çatdırılması zamanı yaranan çətinliklər, onların aradan qaldırılması məsələlərinin araşdırılması, kəndlərdən şəhərə axının qarşısının alınması nöqteyi nəzərdən də tədqiqat zəruridir.

Azərbaycan Respublikasının görkəmli iqtisadçı alimlərinin milli sənaye və kənd təssərrüfatının inkişafına həsr olunmuş elmi-nəzəri və praktiki əhəmiyyətli əsərləri də bu baxımdan xüsusi dəyərləndirilməlidir: Səmədzadə Z.Ə., Nuriyev Ə.X., Quliyev E.A., Rəhmanov F.P., Alıyev İ.H., Balayev R.Ə., Allahverdiyev H.B., Ataşov B.X., Balayev R.Ə., Əliyev R.M., Xəlilov H.A., Muradov A., Məmmədov Q.Ş., Qurbanzadə A.A., İbrahimov V.İ., Şalbuzov N. və s. Doğrudur, təqdim olunan bu əsərlər konkret olaraq ərzaq təhlükəsizliyi məsələsinə həsr olunmamışdır. Ərzaq təhlükəsizliyi problemi ayrıca tədqiqat obyektinə cəlb olunmasa da, iqtisadi və milli təhlükəsizliyi şərtləndirən mühüm iqtisadi problemlər çərçivəsində bu problemə də toxunulmuşdur. Ərzaq məhsullarının əsas mənbəyi olan kənd təsərrüfatı məhsulları istehsalının müasir dünya standartlarına uyğun təşkili, kənd təsərrüfatı müəssisələrinin və subyektlərinin yaradılması, əkin sahələrinin müasir texnologiyalara uyğun becərilməsi, sahibkarlara subsidiyaların verilməsi, iqtisadiyyatın tənzimlənməsi, ərzaq məhsulları istehsal edən sənaye müəssisələrinin yaradılması və s. məsələlər ətraflı öyrənilmişdir.

Ərzaq təhlükəsizliyi probleminə həsr olunmuş beynəlxalq və milli elmi-nəzəri qənaətlərin öyrənilməsi, ümumiləşdirilməsi və tətbiqi imkanlarının müəyyənləşdirilməsi elmi araşdırmanın vacibliyini daha da artırır. Beynəlxalq ərzaq təhlükəsizliyi probleminə dünyada baş verən demoqrafik və texnoloji dəyişikliklərlə kontekstdə yanaşan avropa iqtisadçı alimlərinin Ayerakva H.M., Brooks N., Begley A., C Svamitan, Knight P.G, Jaskson J.C. və s., Türkiyə Respublikası tədqiqatçılarının Deniz Göktan , Günnür Tuncel, Umut K., Fikri Başoğlu., Hasan V., Mustafa Tayar və digərləri və postsovet ölkələri müəlliflərinin Sevryukova Q.A., Boqomolov V.A., Matsenoviç İ.L., Minakov İ.A., Babaşkina A.M.və s. müəlliflərin əsərlərində problem nəzərdən keçirilmişdir. Problemi doğuran səbəblər, onun həlli yollarını şərtləndirən amillər elmi-nəzəri cəhətdən ümumiləşdirilmişdir. Bu haqda elmi dövriyyədə olan nəzəriyyələrin praktiki əhəmiyyəti

dəyərləndirilmişdir.

Aparılan təhlil və ümumiləşdirmələr iqtisadi və milli təhlükəsizliyi şərtləndirən ərzaq təhlükəsizliyinin təmin olunması siyasətinin istiqamətlərinin müəyyən edilməsi üçün qiymətli elmi töhfədir. Bu əsərlərdə iqtisadi siyasətin aspektləri, iqtisadiyyatın idarə olunması və s. məsələlər təhlil edilmiş, yeri gəldikcə qlobal və milli ərzaq təhlükəsizliyi məsələlərinə də toxunulmuşdur. Bununla yanaşı bu əsərlərdə ərzaq təhlükəsizliyi və ərzaq təminatı anlayışlarını bir çox hallarda eyniləşdirən və ya fərqləndirən elmi mövqelərə münasibət bildirilmişdir. Ərzaq təhlükəsizliyinə nail olmanın meyarları və aspektləri sərfnəzər olunmuşdur. Hər hansı bir ölkənin bu poblemin öhdəsindən təkbaşına gələ bilməsinin qeyri-mümkünlüyü əsaslandırılmışdır. Ölkələrin müştərək fəaliyyəti problemin aradan qaldırılmasının məqbul yollarından biri kimi dəyərləndirilmişdir. Beynəlxalq iqtisadi və ticarət əlaqələri, ərzaq məhsullarının ixrac və idxalının tənzimlənməsi, ekoloji və ən başlıcası aqrar sfera ilə kontekstdə nəzərdən keçirilən ərzaq təhlükəsizliyinin təmin edilməsi yolları qruplaşdırılmışdır.

Azərbaycan Respublikası miqyasında ərzaq təhlükəsizliyi ilə əlaqədar aparılan təhlil və ümumiləşdirmələr, elmi mülahizələr, qənaətlər və təkliflərlə zəngin olan bu əsərlər, ilk dəfə olaraq tədqiqata cəlb olunan "Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyi" probleminin öyrənilməsinin məqsəd və vəzifələrinin, tədqiqi metodlarının müəyyən edilməsinə və s. böyük kömək olmuşdur.

Ərzaq təhlükəsizliyinə və əhalinin rifahının müxtəlif aspektlərinin öyrənilməsinə yerli və xarici iqtisad elmində kifayət edəcək qədər diqqət yetirilməsinə baxmayaraq, bu problemin bir çox aspektləri hələ də mübahisəli olaraq qalmaqda davam edir və milli iqtisadiyyat üçün çətin vəzifələr təşkil edir. Respublikada ərzaq təhlükəsizliyi konsepsiyasının işlənib hazırlanması və onun insanların rifah halının yüksəlməsinə təsirinin qiymətləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün səmərəli mexanizmin formalaşdırılması, ərzaq təhlükəsizliyinin milli iqtisadi təhlükəsizlik sistemindəki yerinin tədqiqi məsələlərinin bəziləri hələ də kifayət qədər işlənməmiş olaraq qalır.

Bundan əlavə, mövcud olan çoxsaylı elmi tədqiqatlara baxmayaraq, ərzaq təhlükəsizliyi problemi region səviyyəsində kifayət qədər işlənməmişdir. Dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi

mexanizmi çox vaxt onun regiondakı vəziyyətindən asılıdır, hər bir region isə özünəməxsus xüsusiyyətlərə malikdir: söhbət sosial-iqtisadi şəraitdən təbii-iqlim şəraitinə qədər gedir. Həmçinin bu şərtlər daim dəyişir. Odur ki, hər mərhələdə ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi tələb olunur.

Müasir iqtisadiyyatın reallıqlarına uyğun olaraq tədqiq olunan problemin bir çox aspektlərinin kifayət qədər işlənməməsi, əhalinin rifahının yüksəldilməsi üçün vacib bir şərt kimi ərzaq təminatının nəzəri və praktiki əhəmiyyəti dissertasiya mövzusunun, obyektinin və predmetinin seçilməsini, onun məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Naxçıvan Muxtar Respublikasında ərzaq istehsalı müəssisələri və ərzaq təhlükəsizliyidir. Tədqiqatın predmeti ərzaq təhlükəsizliyinin təmin edilməsinin nəzəri, metodoloji və praktiki məsələlərinin məcmusudur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Naxçıvan Muxtar Respublikasında mövcud vəziyyətin qiymətləndirilməsi və yaxşılaşdırılması ilə bağlı ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün nəzəri, metodoloji və praktiki təkliflərin hazırlanmasıdır.

Tədqiqatın məqsədi həmçinin bir-biri ilə əlaqəli bir sıra elmi, metodoloji və praktiki vəzifələrin qarşıya qoyulmasını və həllini zəruri etdi, o cümlədən:

- ✓ Milli iqtisadi təhlükəsizliyin ən mühüm tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin iqtisadi məzmununu və onun təmin edilməsi mexanizmini araşdırılması;
- ✓ Ərzaq təhlükəsizliyi problemlərinə nəzəri baxışların araşdırılması;
- ✓ Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması istiqamətləri və ona təsir edən amillərinin təhlili;
- ✓ Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin səviyyəsinin və ərzaq bazarının idxaldan asılılığının qiymətləndirilməsi;
- ✓ Aqrar məhsulların ixracının artırılması və onun ərzaq təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi;
- ✓ Kənd təsərrüfatı müəssisələrinin ixracının artırılması və onun təkmilləşdirilməsi imkanlarının müəyyənləşdirilməsi;
- ✓ Ərzaq məhsullarının istehsal göstəricilərinin proqnozlarının işlənib hazırlanması;
- ✓ Ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi

istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı müqayisəli təhlil, sintez, induksiya-deduksiya, statistik təhlil metodlarından, proqnozlaşdırma aparmaq üçün iqtisadi-statistik və ekonometrik metodlardan istifadə olunmuşdur.

Tədqiqatın nəzəri-metodoloji əsasını neoklassik iqtisadi nəzəriyyə, müasir iqtisadi konsepsiyalar, ərzaq təhlükəsizliyi, aqrar iqtisadiyyat və s. əhatə edən praktiki tədqiqatlar, Azərbaycan Respublikası Prezidentinin Sərəncam və Fərmanları, AR Milli Məclis tərəfindən qəbul edilmiş qanunlar, normativ-hüquqi aktları, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən hazırlanan regional proqramlar, sərəncamlar və fərmanlar təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- ✓ Qloballaşmanın sürətlənməsinin ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət və mənfi təsirləri vardır;
- ✓ Dövlət proteksionizm tədbirlərini həyata keçirərkən əhalinin həyat səviyyəsini və alıcılıq qabiliyyətini diqqət mərkəzində saxlamalıdır;
- ✓ Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsini qənaətbəxş hesab etmək olar;
- ✓ Ərzaq məhsullarından qənaətli və israfsız istifadə, müddətli ərzaq ehtiyatının yaradılması ərzaq təhlükəsizliyinin təminatının vacib amilidir;
- ✓ Naxçıvan Muxtar Respublikasında yerləşən 3 müəssisədən müxtəlif məhsullar üzrə əldə edilmiş istehsal göstəriciləri əsasında deyə bilərik ki, NMR-in ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəldilməsi məqsəduyğundur;
- ✓ Aparılmış təhlil və proqnozlaşdırmalara görə 2030-cu ilə qədər Naxçıvan Muxtar Respublikasında heyvandarlıq məhsulları (ət və süd məhsulları) üzrə artım tempi müvafiq olaraq 10,83% və 2,32% olacaqdır;
- ✓ Yaxın perspektivdə Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsinin həlli üçün istehsal müəssisələrinin uzunmüddətli və aşağı faizli bank kreditlərinə əlçatanlığının təmin edilməsi, logistika strukturunun inkişaf etdirilməsi, ərzaq məhsullarının qiymətinin tənzimlənməsi, rəqabətli bazarın formalaşması, innovativ kənd təsərrüfatının inkişafı zəruridir.

- ✓ Uzunmüddətli dövrdə Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün vahid əmtəə siyasətinin işlənib hazırlanması, qida məhsullarının keyfiyyətinin və standartlarının yüksəldilməsi, ölkəyə idxal olunan və yerli müəssisələr tərəfindən istehsal edilən və ya idxalı əvəz edən kənd təsərrüfatı məhsulları istehsalının artırılması vacib hesab olunur;

**Tədqiqatın elmi yeniliyi.**

- ✓ Elmi ədəbiyyatlarda bəzən eyniləşdirilən "ərzaq təhlükəsizliyi", "ərzaq təminatı" və "qida təhlükəsizliyi" anlayışlarına aydınlıq gətirilmiş, bu anlayışların mahiyyəti açıqlamışdır.
- ✓ Naxçıvan Muxtar Respublikası üçün ( 3 müəssisənin istehsal göstəriciləri əsasında) bir neçə məhsul üzrə özünütəminetmə səviyyəsi hesablanmışdır.
- ✓ NMR-in ərzaq bazarının idxaldan asılılığının azaldılması üçün dövlət sifarişləri ilə zəmanətli minimal qiymətlərin tətbiqi, idxalı əvəz edən məhsulların istehsalının dəstəklənməsi əsaslandırılmışdır.
- ✓ Ərzaq təhlükəsizliyi sisteminin və onun ayrı-ayrı göstəricilərinin nəzərə alınması ilə proqnoz hesablamalar işlənib hazırlanmışdır.
- ✓ Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin yaxın və orta perspektivdə təmin edilməsi üzrə üç əsas istiqamət modulu (iqtisadi, ticarət və sosial modullar) müəyyən edilmiş və onların həyata keçirilməsi tədbirləri müəyyən olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Dissertasiya işinin nəzəri əhəmiyyəti ərzaq təhlükəsizliyi nəzəriyyəsinin islahatlar aparılan iqtisadiyyatın şəraitinə uyğun olaraq inkişaf etdirilməsində və müasir şəraitdə ərzaq təminatının yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasətinə nəzəri yanaşmalar sahəsində elmi biliklərinin artırılmasındadır.

İşin praktiki əhəmiyyəti onun nəticələrinin dövlət hakimiyyəti orqanlarının iqtisadiyyatın idarə olunması metod və formalarının təkmilləşdirilməsi, xüsusən də ərzaq təhlükəsizliyi sahəsində proqram və strateji sənədlərin, milli və sahə proqramlarının və layihələrinin hazırlanması zamanı istifadə oluna bilər.

Dissertasiya tədqiqatının müəyyən müddəaları (ərzaq təhlükəsizliyinin təmin edilməsinin ümumi şərtləri və xüsusi formaları və s. haqqında) Naxçıvan Dövlət Universitetində tədris olunan

“İqtisadiyyatın dövlət tənzimlənməsi”, “Makroiqtisadiyyat”, “Dünya iqtisadiyyatı”, “Aqrar sferanın iqtisadiyyatı”, “Dünya ərzaq təhlükəsizliyi” “İqtisadi təhlükəsizlik” fənnləri üzrə tədris prosesində, habelə respublikada iqtisadi islahatların aparılması məsələlərinə dair xüsusi kurslarda istifadə edilə bilər.

Tədqiqat materialları həmçinin əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və ərzaq bazarının tənzimlənməsi zamanı istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmunu Respublika və Beynəlxalq elmi konfranslarının materiallarında, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi-dövri jurnallarda nəşr edilən 8 məqalə (4-ü xaricdə ) və 7 tezisdə (5-i xaricdə ) əhatə olunmuşdur.

Tədqiqatın əsas nəticələri və təklifləri Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən (352/2021 nömrəli, 26 iyul 2021-ci il tarixli məktub) tətbiq olunmaq üçün qəbul edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi titul səhifəsi 384 şərti işarə sayı, mündəricat 1,745 şərti işarə sayı, giriş 15,432 şərti işarə sayı, əsas məzmun 202,632 işarə sayı (I fəsil: 38,256 şərti işarə sayı, II fəsil: 71,221 şərti işarə sayı, III fəsil 93,155 şərti işarə sayı), nəticə 13,568 şərti işarə sayı və istifadə edilmiş ədəbiyyat siyahısı 25,360 şərti işarə olmaqla ümumilikdə 259,121 şərti işarədən ibarətdir.

## DİSSERTASİYANIN STRUKTURU

**Giriş**

**I fəsil. Ərzaq təhlükəsizliyinin nəzəri–metodoji əsasları**
1.1.Ərzaq təhlükəsizliyinin mahiyyəti və onu şərtləndirən amillər
1.2. Ərzaq təhlükəsizliyi məsələlərinə nəzəri yanaşmalar
1.3.İqtisadi təhlükəsizlik sistemində ərzaq təhlükəsizliyinin rolu

**II fəsil. Naxçıvan muxtar respublikasında ərzaq təhlükəsizliyinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**
2.1.Naxçıvan Muxtar Respublikasında aparılmış aqrar islahatların aspektləri
2.2.Muxtar respublikada ərzaq təhlükəsizliyinin mövcud vəziyyətinin təhlili əsasında qiymətləndirilməsi
2.3. Azərbaycanda və regionlarında istehlak bazarının formalaşmasına ərzaq təhlükəsizliyinin təsiri imkanları

**III fəsil. Naxçıvan muxtar respublikasında ərzaq təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsi yolları**
3.1. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsinin təkmilləşdirilməsi
3.2. Kənd təsərrüfatı müəssisələrinin ixrac potensialının təkmilləş-dirilməsi istiqamətləri
3.3. Kənd təsərrüfatı məhsullarının istehsal göstəricilərinin proqnozu
3.4. Ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**
**Əlavələr**
**İxtisarların siyahısı**

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, dissertasiyanın aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın quruluşu və həcmi haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Ərzaq təhlükəsizliyinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin vacib tərkib hissəsi kimi xarakterizə olunmuşdur. Əhalinin sağlam həyatının, iqtisadi inkişafının ümumi səviyyəsinin göstəricisi kimi mühüm mahiyyət daşıdığı vurğulanmışdır. Ərzaq təhlükəsizliyinin mahiyyətini əks etdirən beynəlxalq əhəmiyyətli bəyannamələr, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) təşkil etdiyi Ümumdünya Ərzaq Konfransında Qida təhlükəsizliyinin mahiyyətini ifadə edən qərarlar nəzərdən keçirilmişdir. Kənd təsərrüfatı istehsalının ixtisaslaşması və mövcud tələblərə uyğunlaşdırılması ərzaq təhlükəsizliyinin başlıca mənbəyi kimi qiymətləndirilmişdir. Dövlətin kənd təsərrüfatına uzunmüddətli investisiyaların stimullaşdırılması tədbirlərinin həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılmışdır. Bu proseslərin hüquqi baza ilə tənzimlənməsi, maliyyələşdirilməsi və tətbiqinin vacibliyi göstərilmişdir. Milli ərzaq təhlükəsizliyini və ərzaq suverenliyini təmin edən bir sıra amillər, o cümlədən ərzaq istehsalının səviyyəsi, qida istehsalının iqtisadi faydaları, qida dəyəri, əhalinin istehlak qabiliyyəti, ölkə üzrə orta aylıq əmək haqqı səviyyəsi, aztəminatlı insanlara dövlət tərəfindən verilən imtiyazlar, ölkənin mövcud ərzaq ehtiyatları və s. amillər təhlil olunmuşdur. Sosial təminat proqramlarının olmaması, zəif iqtisadi şərait, siyasi qeyri-sabitlik ərzaq təhlükəsizliyi və aclığın azaldılması səylərini ləngidən faktorlar olduğu əsaslandırılmışdır. Təhlükə Təhlili və Kritik Nəzarət Yanaşmalarından (HACCP) istifadə etməklə riskə əsaslanan, profilaktik qida təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsinin zəruriliyi vurğulanmışdır. Ekoloji cəhətdən saf, kəmiyyət və keyfiyyətcə bazarın tələblərinə cavab verən ərzaq istehsalı və ehtiyatlarının yaradılmasının qeyd olunan yanaşmalarla şərtləndiyi əsaslandırılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təsdiq

etdiyi "Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq məhsulları ilə təminatına dair Milli Proqram"ın qarşıya qoyduğu vəzifələrin yeni yanaşma formalarına əsaslanan icrasının, respublikanın ərzaq müstəqilliyinə tam nail olmağın əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Qanunvericilik bazasının qeyri-mükəmməlliyi, regionların sosial-iqtisadi inkişafında fərqlərin artması, iqtisadiyyatın strukturunun deformasiyası və investisiya fəallığının aşağı səviyyəsi, daxili məhsulun az rəqabət qabiliyyətli olması, ödəniş problemlərinin kəskinləşməsi, vergi sisteminin mükəmməl olmaması, inflyasiyanın yüksək səviyyəsi, yoxsulluğun və kölgə iqtisadiyyatının xüsusi çəkisinin yüksək olması amilləri bütövlükdə iqtisadi təhlükəsizliyə daxili təhdidlər hesab edilmişdir. İqtisadi strukturun güclü deformasiyası, elmi-texniki potensialın dağılması, investisiya və innovasiya fəallığının azalması, ölkənin yanacaq-xammal ixrac edən dövlətə çevrilməsi, cəmiyyətdə təbəqələşmənin güclənməsi, xarici borcun artması, idxaldan asılılıq, xaricə valyuta axını və s. milli iqtisadiyyat üçün ciddi təhlükə yaradan səbəblərin təsnifatı verilmişdir[1].

Dissertasiyanın **"Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlı ikinci fəslində Ümummilli lider Heydər Əliyevin 1991-ci ilin sentyabr ayından 1993-cü ilin ortalarına qədər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti dövründə bünövrəsi qoyulmuş aqrar islahat prosesi təhlil olunmuşdur.

Əsası "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında", "Rentabelli işləməyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" və s. qərarlarla qoyulan hüquqi bazanın Azərbaycan Respublikası miqyasında daha da möhkəmləndirilməsinə dair fəaliyyət ümumiləşdirilmişdir. Xüsusi mülkiyyətçilik prinsiplərinə əsaslanan sahibkar təsərrüfatlarının yaradılmasına, əhalinin ərzaq təminatında baş verən müsbət dinamikanı əks etdirən faktlar analiz edilmişdir. Özəl təsərrüfatlara kredit, investisiya ayırmaları, vergilərlə və s. əlaqəli

---

[1] *Штерн Ю. Уникальность экономики Израиля. Научные труды Международного союза экономистов и вольного экономического общества России. Том В. – Санкт-Петербург: –1998, – с.52-54.*

güzəştlərin tətbiqinin ərzaq məhsullarının istehsal həcminin artırılmasına təsiri izlənmişdir.

Naxçıvan Muxtar Respublikasında bir neçə məhsul üzrə istehsal və məhsuldarlıq göstəricilərini əks etdirən qrafiklər tərtib olunmuş və təhlil olunmuşdur. Aparılan aqrar islahatların əhəmiyyəti, nəticələri, aspektləri ümumiləşdirilmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərindən başlayan ərzaq təhlükəsizliyi siyasətinin gedişi və nəticələri ümumiləşdirilmişdir. Əhalinin ərzaq təminatı səviyyəsini ifadə edən statistik məlumatlar analiz edilmiş, son illərə dair statistik göstəricilər ilk dəfə olaraq elmi dövriyyəyə cəlb olunmuşdur.

Ölkənin ərzaq təhlükəsizliyinə təsir edən daxili və xarici amillər təhlil olunmuş, kənd təsərrüfatı münasibətlərinin bazar mexanizmi əsasında formalaşmasının istiqamətləri verilmiş, Muxtar Respublikada, bütövlükdə Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlərin istiqamətləri təqdim olunmuşdur. Ət və süd məhsullarının idxal olunma səbəbləri göstərilmiş və təhlil olunmuşdur.

Eyni zamanda Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində (QƏTİ) Azərbaycanın yeri digər ölkələrlə müqayisəli təhlil olunmuşdur.

Dissertasiyanın üçüncü fəsli "**Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsi yolları**" adlanır. Bu gün əhalisi 461,5 min nəfərə çatan muxtar respublika əhalisinin son 30 il ərzində 154 min nəfər artdığı diqqətə çatdırılmış, qarşıdakı 30 ildə bu temp dayanıqlı olarsa, əhali sayının yarım milyonu aşacağı proqnozlaşdırılmışdır. Şəhər və kənd əhalisinin sayında baş verən nisbət dəyişikliyinin birincinin hesabına artdığı vurğulanmışdır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəssisələrdən("APF" MMC, "Cahan Çay" MMC, "Nehrəm Qida Sənaye"MMC) illik istehsal göstəriciləri haqqında statistika əldə edilmiş və təhlillər aparılmışdır. Perspektivdə diyarda ərzaq azlığı probleminin ehtimalı irəli sürülmüş, ərzaq təhlükəsizliyinin təmin edilməsi yollarının elmi cəhətdən araşdırılmasının aktuallığı vurğulanmışdır.

Ərzaq təhlükəsizliyinin təmin olunmasının təkmilləşmə istiqamətləri göstərilmişdir. Eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar əsaslı klasterlərin əhəmiyyəti vurğulanmış, üstünlükləri qeyd olunmuş qrafik təsvir olunmuşdur.(Bax: Qrafik 1.)




**Qrafik 1. Regional klasterlərin üstünlükləri**

*Mənbə: [180] əsaında müəllif tərtib etmişdir*

Zaman sıralarının proqnozu üçün istifadə olunan sürüşkən orta, birdəyişənli və sistem reqressiya modelləri, VAR, AR, MA və ARMA modelləri haqqında məlumatlar verilmişdir. ARMA modelini qurarkən Eviews7 tətbiqi statistik PP-dən istifadə edərək Box-Jenkins iterasiyası ilə cəmi ət və süd məhsulları üzrə 2030-cu ilə qədər olan proqnoz göstəriciləri haqqında cədvəl və qrafik tərtib olunmuşdur. Süd istehsalı üzrə proqnoz göstəricilərini əks etdirən cədvəl və qrafikə nəzər yetirək: (Bax: Cədvəl 1. və qrafik 2.)

**Cədvəl 1.**
**Cəmi süd istehsalı üçün (2024-2030) proqnoz qiymətləri**

| № | İllər | Proqnoz məlumatları |
|---|---|---|
| 1 | 2024 | 91771.85 |
| 2 | 2025 | 92450.89 |
| 3 | 2026 | 93080.57 |
| 4 | 2027 | 93470.41 |
| 5 | 2028 | 93783.38 |
| 6 | 2029 | 93886.70 |
| 7 | 2030 | 93897.65 |

*Mənbə: Müəllif tərtib etmişdir.*




**Qrafik 2. Süd istehsalı (2000-2022) və proqnoz göstəricilər(2024-2030)**
*Mənbə: Müəllif tərtib etmişdir*

Dövlət tənzimləmə siyasətinin strateji məqsədinin daxili ərzaq bazarının tələbatını vaxtında və tələbata uyğun ödənilməsini fasiləsiz təmin etmək olması əsaslandırılmışdır. Həyata keçirilən dövlət tənzimlənmə siyasətinin daha da təkmilləşdirilməsi üçün təkliflər verilmişdir. Tədqiq edilən dövrdə muxtar respublikada reallaşdırılan dövlət tənzimlənməsi ərzaq təhlükəsizliyi sahəsində strateji hədəflərin fəthində, əhalinin qida məhsulları ilə vaxtında və keyfiyyətli

təminatında təsirli rol oynaması vurğulanmış, əldə olunan nailiyyətlərə dair nəticələr ümumiləşdirilmişdir.

**Dissertasiyada əldə olunmuş nəticələrə yekun vuraraq aşağıdakı əsas ümumiləşmələri və qənaətləri hasil etmək olar:**

1. Müasir dövlətin müstəqilliyi daha çox ərzaq təhlükəsizliyinin vəziyyəti ilə müəyyən edilir ki, bu da onun təmin edilməsi istiqamətlərinin və vasitələrinin daim axtarışının zəruriliyini irəli sürür. Bu baxımdan regionların və onlarda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin öz ərazilərinin ərzaq və kənd təsərrüfatı xammalı ilə təmin edilməsində məsuliyyəti kəskin şəkildə artır. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi probleminin həlli onun institusional, iqtisadi və sosial fəaliyyətinin müxtəlif aspektlərini əhatə edən mürəkkəb və çoxşaxəli prosesdir.

2. Əsərdə qida təhlükəsizliyi anlayışı, məqsədi, obyektləri, subyektləri, səviyyələri, təhdidləri və meyarları dəqiqləşdirilir. Dissertasiyada ərzaq təhlükəsizliyi anlayışının şərhi genişləndirilmiş və tamamlanmışdır. Milli aqrar istehsal, ərzaq ehtiyatlarının yaradılması, ərzaq tədarükünün idxal-ixrac tənzimlənməsi, beynəlxalq ərzaq yardımı kimi əsas daxili və xarici amillərin məcmusunun rasional və səmərəli istifadəsi yolu ilə həyata keçirilir. Bununla yanaşı, aqrar sektorun potensialını ərzaq əlçatanlığını təmin etmək və ölkənin ərzaq suverenliyinə yeni risklər və təhdidlər qarşısında dayanmaq üçün səfərbər etmək bacarığı ərzaq təhlükəsizliyinin əsas faktoru kimi müəyyən edilmişdir.

3. Dissertasiyada ərzaq təhlükəsizliyinin təmin edilməsi vəzifələrinin həllində NMR-ın ərzaq bazarının xüsusi rolu qeyd olunur. Bazar münasibətlərinin, əmtəə və xidmətlərin geniş çeşidli subyektlərindən ibarət olan NMR-in ərzaq bazarının spesifikliyi açıqlanır. Qeyd olunur ki, ərzaq bazarının inkişafına və yerli kənd təsərrüfatı istehsalının stimullaşdırılmasına NMR-də təsərrüfatların şaxələndirilməsi kömək edir. Bu, inhisarçılığı aradan qaldırmağa, daha yüksək rəqabət yaratmağa və əlavə gəlir əldə etməyə imkan verir.

Kənd təsərrüfatı məhsulları istehsalı sahəsində iqtisadi ixtisaslaşma və inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasının **ərzaq bazarının gücləndirilməsi** üzrə tövsiyələr işlənib hazırlanmışdır ki, bunlar kənd təsərrüfatının maddi-texniki

bazasının yenilənməsi, sahənin insan kapitalının bərpası, yerli istehsal olan dəqiq əkinçilik texnologiyalarının işlənib hazırlanması, proqnozlaşdırma sisteminin inkişafı və dayanıqlı ərzaq sistemlərinə keçidin təmin edilməsini özündə ehtiva edir.

Milli iqtisadiyyatın və onun əsas sahələrinin sosial-iqtisadi inkişafına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş vəzifələrin vaxtında həlli bu istiqamətlərin praktikada həyata keçirilməsinə şərait yaradır.

4. Müəllif muxtar respublikada ərzaq təhlükəsizliyi məsələlərinin həllində kiçik sahibkarlığın mühüm rolunu qeyd edir. Kənd yerlərində sahibkarlar böyük investisiya tələb etmirlər. Eyni zamanda bazarları ərzaq məhsulları ilə doydurur, məşğulluğun artırılmasına kömək edir, büdcəyə vergi daxilolmalarını təmin edir. İşdə belə qənaətə gəlinir ki, müvafiq infrastrukturu (informasiya mərkəzləri, monitorinq, konsaltinq) yaratmaqla kiçik biznesi inkişaf etdirmək lazımdır. İşçilərin hazırlanması və ixtisasının artırılması yolu ilə kiçik müəssisələrin kadr təminatına da diqqət yetirmək lazımdır.

5. Əsərdə qeyd olunur ki, regionun ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol **regional ərzaq bazarının dövlət tənzimlənməsi** mexanizminin təkmilləşdirilməsinə məxsusdur. Müəllif aqrar-ərzaq bazarının inkişafının dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərini sadalayır: sahələrarası və regionlararası münasibətlərin tənzimlənməsi, dövlət və region ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının zəmanətli qiymətlərlə tədarükünə dair sifarişlər əsasında kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında qiymət paritetinin təmin edilməsi, aqrar-sənaye kompleksinin maliyyə-kredit tənzimlənməsi və girov əməliyyatları sisteminin tətbiqi, kənd təsərrüfatı proteksionizmi, aqrar-sənaye kompleksində innovativ iqtisadiyyatın yaradılmasına dəstək.

6. Muxtar Respublikada aparılmış aqrar islahatların meylləri araşdırılmış, bütövlükdə Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasının nəticələri əsasında təkliflər verilmişdir;

Əldə olunan nailiyyətlərin ərsəyə gəldiyi dövrün tədqiqi, ərzaq problemini doğura biləcək faktorların araşdırılması, onların qarşısının alınması yolları və imkanlarının təhlili, torpağın xüsusi mülkiyyətə

verilməsi, əkinçilik və heyvandarlıq sahəsində sahibkar təsərüfatlarının yaradılması, onlara dövlət dəstəyini, ərzaq təminatı və ərzaq təhlükəsizliyi sahəsində tədbirləri və s. aktual istiqamətləri elmi-nəzəri mövqedən təhlil edərək Naxçıvan MR-da ilk dəfə olaraq başlanan aqrar islahatın və onun ölkə miqyasında davam etdirilməsinin dinamikası ümumiləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar kənd təsərrüfatı sektorunun inkişafını sürətləndirmək, yerli fermerlərin sosial rifahını yaxşılaşdırmaq və əkinçilik fəaliyyətini daha mütəşəkkil və səmərəli hala gətirmək məqsədini güdür. Bu islahatların əsas aspektləri isə torpaq islahatları, aqrotexniki xidmətlər və məhsuldarlığın artırılması, infrastrukturun gücləndirilməsi, aqrar sahənin diversifikasiyası, kənd təsərrüfatının rəqəmsallaşdırılması və modernləşdirilməsidir.

Müəyyən edilmişdir ki, sosial-iqtisadi inkişafın başlıca məqsədlərindən olan ərzaq təhlükəsizliyi siyasətinin həyata keçirilməsi prosesini üç mərhələyə bölmək olar.

- ✓ birinci dövrü 1991-1995-ci illərə hüdudlandırmaq məqsədəuyğundur. Bu yanaşma ümummilli lider H. Əliyevin Naxçıvan Muxtar Respublikasında Ali Məclisə sədrliyi zamanı əsasını qoyduğu iqtisadi islahatların sayəsində ölkədə iqtisadi böhranın dərinləşmə sürətinin qarşısının alınması faktı ilə şərtlənir;
- ✓ ikinci mərhələ 1995-ci ildən 2003-cü ilə qədərki dövrü əhatə edir. Bu dövrü islahatların hüquqi bazasının əsasının qoyulması və dərinləşdirilməsi, 1997-ci ildə ilk dəfə olaraq iqtisadi yüksəliş meylinin əsasının qoyulması, blokada şəraitindən irəli gələn çətinliklərin dəf olunması ilə xarakterizə etmək olar. Keyfiyyətcə zəngin olan bu mərhələdə əsaslı inkişaf reallaşdırılmış, makroiqtisadi göstəricilər artmışdır;
- ✓ üçüncü mərhələ isə 2003-cü ildən başlayaraq, 2004-2023-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”na, eləcə də Muxtar Respublikada qəbul edilmiş proqramların qarşıya qoyduğu vəzifələrin icrasının uğurla həyata keçirilməkdə olduğu hazırki müddətə qədərki dövrü əhatə

edir.

7. Dissertasiyada ərzaq təhlükəsizliyi sisteminin inkişaf dinamikasının təhlili aparılmış, bu sferanın dinamik inkişafını təmin edən əsas xarici və daxili amilləri tədqiq edilmiş və inkişaf xüsusiyyətləri üzə çıxarılmışdır.

Aparılmış təhlil sahənin sonrakı müasirləşməsi prosesinin qarşısını alan və perspektivli dövrdə öz həllini tələb edən ərzaq təhlükəsizliyi sisteminin inkişaf problemlərini və ilkin şərtlərini üzə çıxartmağa və strukturlaşdırmağa imkan vermişdir, onların arasında, o cümlədən, informasiya texnologiyaları sferasında Azərbaycan bazarının xarici məhsuldan asılılığın nisbətən yüksək səviyyədə olması, əhali üçün, xüsusən də kənd yerlərində yaşayan əhali təbəqələri üçün rabitə vasitələrinin və telekommunikasiya infrastrukturun istifadəsi ilə təmin edilmənin republikadaxili yayılmasının qeyri-bərabərliyi və əlçatanlığın differensiasiyası, təkcə xarici deyil, həmçinin daxili bazarda da yerli rabitə sahəsinin rəqabətqabiliyyətliliyinin kifayət edəcək dərəcədə olmaması problemi və s. göstərilə bilər.

Yerinə yetirilmiş təhlil perspektiv üçün ərzaq təhlükəsizliyi sisteminin proqnozu üçün baza olmuşdur.

8. Əsərdə **"Respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsi Konsepsiyası"**nın qəbul edilməsinin zəruriliyi qeyd edilir ki, burada aşağıdakılar nəzərdə tutulmalıdır: əhalinin yerli istehsal olan ərzaq məhsulları ilə təminatı, onların həyat səviyyəsinin saxlanılması və daim yaxşılaşdırılması məsələlərinin həllində sosial yönümlülük, aqrar-sənaye istehsalının artımının dövlət tənzimlənməsi, yerli istehsalçıların və istehlakçıların prioritetinə əsaslanan, ölkə üçün faydalı beynəlxalq əmək bölgüsünü təmin edən xarici iqtisadi siyasət, böyük şəhərlərdə və fövqəladə hallarda əhalinin ərzaqla təmin edilməsi üçün dövlət ərzaq ehtiyatlarının və digər ərzaq fondlarının formalaşdırılması, əhalinin aztəminatlı qruplarını ərzaqla təmin etmək üçün ərzaq yardımı fondlarının yaradılması, yerli aqrar-sənaye istehsalının imkanları səfərbər etməklə respublika əhalisini ərzaq məhsulları ilə etibarlı şəkildə təmin etmək məqsədilə istehsalın təşkilinin təkmilləşdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi tədbirlərinin işlənib hazırlanması və qəbul edilməsi əsasında iqtisadiyyatın aqrar sektorunun səmərəliliyinin artırılması.

9. Respublikanın ərzaq təhlükəsizliyi sisteminin və onun ayrı-ayrı göstəricilərinin zamanla dəyişmə sürətinin və intensivliyinin aparılmış təhlili əsasında ayrı-ayrı göstəricilərin formalaşdırılması və dəyişməsi spesifikasını nəzərə almağa imkan yaradan göstəricilərin 2030-cu ilə qədər proqnoz hesablamaları modeli işlənib hazırlanmış və aprobasiya edilmişdir.

Modeldə respublikanın ərzaq təhlükəsizliyi sisteminin dayanıqlı inkişafının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə işlənib hazırlanmış tövsiyyələr ərzaq məhsullarının çeşidinin genişləndirilməsinə, onların keyfiyyətinin yüksəldilməsinə, muxtar respublikanın ərzaq məhsulları və xidmətləri bazarında infrastrukturun və rəqabət mühitinin inkişafına səbəb olacaqdır.

10. Dissertasiya işində aparılan təhlillər nəticəsində belə qənaət əldə edilir ki, muxtar respublikanın ərzaq təhlükəsizliyinin səviyyəsi kənd təsərrüfatı müəssisələrinin maliyyə sağlamlaşdırılmasından, rəqabət qabiliyyətinin və səmərəliliyinin yüksəlməsindən asılıdır. Bu məqsədlə müəssisələrin rəhbərləri və mütəxəssisləri bu tədbirləri həyata keçirməlidirlər: müəssisələrin iqtisadi vəziyyətinin ətraflı təhlilini aparmalı, mövcud bazar konyunkturası şəraitinə və mövcud istehsal potensialına uyğun olaraq istehsal strukturunu dəqiqləşdirmək, ilkin uçot sisteminin bərpası və keyfiyyətini yüksəltmək, kadrların müstəqil sertifikatlaşdırılmasını aparmaq və kifayət qədər ixtisas səviyyəsinə malik olmayan işçiləri ixtisar etmək, təsərrüfatdaxili uçotu tətbiq etmək və maddi həvəsləndirmə sistemini təkmilləşdirmək.

11. NMR iqtisadiyyatı aqrar sektoru müasir şəraitdə muxtar respublikanın və ölkənin ərzaq təhlükəsizliyini aşağıdakılarla təmin edə bilər: məhsuldarlıq, meliorasiya, yollar, kənd yaşayış məntəqələrinin sosial və istehsalat infrastrukturu üzrə məqsədli proqramların büdcədən maliyyələşdirilməsi ilə bağlı dövlət proteksionizminin gücləndirilməsi, kənd təsərrüfatı istehsalçılarına xidmət göstərmək üçün keyfiyyətcə yeni müəssisələrin, birliklərin və kooperativlər şəbəkəsinin formalaşdırılması, regional topdansatış bazarlarının və birjalarının təşkili.

Əsaslandırılmışdır ki, muxtar respublikanın ərzaq bazarının iri beynəlxalq ərzaq korporasiyalarından asılılığının azaldılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi **dövlət proteksionizmi tədbirlərinin**

(dövlət sifarişləri ilə zəmanətli qiymətlərin tətbiqi, qiymət pariteti probleminin qanunvericiliklə həlli, AİK-in büdcə qarşısında borclarının uzadılması və qismən silinməsi və s.) daxili ərzaq bazarındakı bazar mexanizminin fəaliyyəti ilə optimal birləşdirilməsini nəzərdə tutur.

12. Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsinin həlli üzrə əsas problemlər və perspektivlər müəyyən edilmişdir.

İddiaçı aşağıdakıları problemlər sırasına daxil edir: istehsal müəssisələrinin uzunmüddətli və aşağı faizli bank kreditlərinə əlçatan olmaması; muxtar respublika ərazisində logistika strukturunun kifayət qədər inkişaf etməməsi; dövlətin qiymət tənzimləmə mexanizminin yetərsiz səmərəliliyi; ədalətli rəqabətə mane olan ərzaq bazarlarının monopolizasiya elementləri; ərzaq məhsulları bazarının zəif inkişaf etmiş infrastrukturu, yeni innovativ təsərrüfat texnologiyalarının çatışmazlığı.

Perspektivlərə isə aşağıdakılar daxildir: vahid əmtəə siyasətinin işlənib hazırlanması, qida məhsullarının keyfiyyətinin sistematik şəkildə artırılması və onun beynəlxalq standartlara uyğunlaşdırılması, ölkəyə idxal olunan və yerli müəssisələr tərəfindən istehsal edilən və ya istehsal edilməsi mümkün olan malların gətirilməsinə məhdudiyyətlərin qoyulması;

- Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin gücləndirilməsi üzrə tövsiyələrin işlənib hazırlanması, muxtar respunlikanın inkişaf xüsusiyyətləri və kənd təsərrüfatı məhsulları istehsalı sahəsində iqtisadi ixtisaslaşmanın nəzərə alınması;
- Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin elmi-texnoloji yanaşmanın tətbiqi əsasında təkmilləşdirilməsi mexanizmi (böyük verilənlərin idarəetmə sisteminin tətbiqi, kənd təsərrüfatının məhsuldarlığının qiymətləndirilməsində süni intellektdən istifadə, bu da ərzaq məhsullarının təhlükəsizliyinin qiymətləndirilməsini sürətləndirməyə, onların keyfiyyətini yaxşılaşdırmağa, yeni faktor və qanunauyğunluqların aşkarlanmasına imkan verəcək).
- Proqnozlaşdırma və monitorinq sisteminin inkişafı: ərzaq məhsullarının təhlükəsizliyi sahəsində yaranan problemləri və riskləri müəyyən edə bilən alətlərin işlənməsi və tətbiqi, yaranan problemlərə

nəzarət, qarşısının alınması və monitorinqi üçün vaxtında tədbirlər görmək, habelə ərzaq zəncirlərinin tələblərinə sürətlə uyğunlaşmaq üçün yeni və çevik proseslərin işlənməsinə imkan verəcək

13. Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin yaxın və orta perspektivdə təmin edilməsi üzrə üç əsas istiqamət modulu (sosial, iqtisadi və ticarət modulları) müəyyən edilmiş və onların həyata keçirilməsi tədbirləri tövsiyə edilmişdir.

Modul 1 – Sosial tədbirlər

Statusundan asılı olmayaraq əhalinin bütün təbəqələri üçün əsas qida məhsullarının istehlakının lazımi standartlarının təmin edilməsi, tibbi, təhsil xidmətlərə çıxışın yaxşılaşdırılması və mənzil əldə olunması ilə bağlı xüsusi proqramların həyata keçirilməsi, fermerlərin hüquqi müdafiəsinin gücləndirilməsi, muxtar respublikadan malların ixracı üzrə vergi və bürokratik yükün azaldılması və s.

Modul 2 – İqtisadi tədbirlər

Məhsuldar kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi, ərzaq təhlükəsizliyinin müntəzəm monitorinqi, kənd təsərrüfatı istehsalçılarının gəlirlərinin genişmiqyaslı təkrar istehsalın həyata keçirilməsini və kəndin inkişafı üzrə dövlət proqramlarının icrasını təmin edəcək səviyyədə dəstəklənməsi, istehlak kooperasiyasının müxtəlif formalarının inkişafı və AİK sahəsində inkişaf etmiş maliyyə-kredit və bank infrastrukturu yaradılması üçün şəraitin təmin edilməsi və s.

Modul 3 – Ticarət tədbirləri

Milli ərzaq bazarının yüksək səviyyədə qorunması, inkişaf etmiş rəqabətli mühitin formalaşdırılması, istehsal, tədarük, emal və satış daxil olmaqla dəyər zəncirlərinin yaradılması, logistikanın bütün həlqələrinin təkmilləşdirilməsi və ərzaq daşınmasına mane olan həlqələrin aradan qaldırılması, əsas qida məhsullarının məhsuldarlığının artırılmasına kömək edən muxtar respublikanın ixtisaslaşmasının dərinləşdirilməsi üçün şəraitin yaradılması və s.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**


1. Ərzaq təhlükəsizliyi Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafı şərtləndirən amil kimi. AMEA Naxçıvan bölməsi, "Xəbərlər", ictimai və humanitar elmlər seriyası, – 2018, №3, – səh. 287-291
2. Azərbaycan Respublikasında istehlak bazarının formalaşması ərzaq təhlükəsizliyinin təmin olunmasının mühüm şərtidir. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər №6, – Bakı, – 2019. – səh. 252-259
3. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətləri. 22 aprel 2019-cu ildə Naxçıvan Dövlət Universitetində keçirilən Elmi konfransın materialları. – Naxçıvan, – 2019, səh. 95-98
4. Обеспечение продовольственной безопасности и создание правовой базы Нахичеваской Автономной Республики. Международный научно-практический журнал «Экономическое отношение», том 10, №2, РФ, – Москва, – 2020. – стр. 467-480
5. Формирование потребительского рынка в Азербайджанской Республике, как фактор обеспечения продовольственной безопасности. Международный научно-практический журнал «Экономика предпринимательства и право», том 10, № 6, РФ, – Москва, – 2020. – стр. 1885-1900
6. Ərzaq təhlükəsizliyinin təmin olunmasında ərzaq bazarının tənzimlənməsi zəruriliyi. Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların beynəlxalq elmi konfransının materialları. – Bakı, – 2020. – səh. 1695-1701
7. A secure food market is an important factor in food security. Research Journal Of English (RJOE) Vol-5, Issue-3, – İndia, – 2020, – p.137-141
8. Analyse et évaluation de la sécurité alimentaire dans la République autonome du Nakhitchevan //Science. Education.

Practice : proceedings of the International University Science Forum – Canada, Toronto, – 2020. Part 1., – p.10-17

9. Продовольственный рынок как важный фактор продовольственной безопасности. //Конкретный потенциал региона: Оценки и Эффективность Использования. Сборник статей XI Международной научно-практической конференции. РФ, – Хакасия, – 2020. – стр. 25-27

10. Nahçivan'da Tarım Reformlarının İlk Kez Başlaması Ve Ulusal Düzeyde Devam Ettirilmesi // TURAN-SAM: TURAN Stratejik Araştırmalar Merkezi TURAN-SAM Uluslararası Bilimsel Hakemli Dergisi; Cilt: 13, – Kars, – 2021, – s. 283-294

11. Актуальные проблемы социально-экономического развития сельскохозяйственного производства в Нахчыванской Автономной Республике и государственное регулирование продовольственной безопасности // Актуальные Проблемы Социально-Экономического Развития Общества, Филиал ФГБОУ ВО «Керченский государственный морской технологический университет» в г. Феодосия IV Национальной научно-практической конференции . УКРАИНА, – Керчь, –2022, – стр. 124-127

12. Food security: application of ARIMA model in food production forecasting. Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC Elmi Xəbərləri, İl 10, Cild 10, – Bakı, – 2022. – səh. 116-128

13. Анализ угроз и системы управления критическими ситуациями в развитии системы безопасности пищевых продуктов // Южный научный центр РАН, Южный федеральный университет. РФ, – Ростов-на-Дону, –2022, – стр. 182-192

14. Naxçıvan Muxtar Respublikasında Ərzaq Təhlükəsizliyinin Təmin Olunmasında Müəssisələrin Rolu // Харьковский национальный автомобильно-дорожный университет (ХНАДУ). Украина, – Харьков, –2024, – стр. 127-129

15. Функции и задачи предприятий в обеспечении продовольственной безопасности Нахичеванской Автономной Республики // Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi Mingəçevir Dövlət Universiteti, “Elm günü”nə həsr olunmuş VI elmi-nəzəri konfransının materialları. – Mingəçevir, – 2024. – səh. 317-319

Dissertasiyanın müdafiəsi 02 aprel 2025-ci il tarixində saat 10:00 Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində fəaliyyət göstərən BFD 4.21 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 6a

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Capa imzalanıb: 12.02.2025
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (37590 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kom`mersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +99455201280*